# Rauf Məhərrəm oğlu İbadov

Azərbaycanımızın ərazi bütövlüyü uğrunda canından keçən Şəhidlərimizin ömür yolu örnəkdir. Şəhidlik qəhrəmanlığın ən ali məqamıdır. Bu zirvəyə ucalmaq hər kəsə nəsib olmur. Yalnız məqsədləri, amalları uğrunda vuruşan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən, cəsarətli, ləyaqətli insanlar bu zirvəyə ucala bilərlər. Bu ali məqama, zirvəyə yüksələnlər ölməzlik qazanırlar elə Rauf İbadov kimi...

İbadaov Rauf Məhərrəm oğlu 04may 1996-cı il Abşeron rayonunun Saray qəsəbəsində anadan olmuşdur. 2002-2013-cü illərdə Saray qəsəbəsində 2 saylı orta məkəbdə təhsil almışdır. 2013- 2017 ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinə İnşaat Texnologiya fakultəsində ali təhsil almışdır..

2017- 2018 ci illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdə nümunəvi xidmətinə görə fəxri fərmanla təltif edilmiş və hərbi hissə komandiri tərəfindən qol saatı hədiyyə olaraq verilmişdir. Milli Qəhramanımız Mübariz İbrahimovu özünə ideal seçərək, 2016-cı ildən Şəhidlik zirvəsinə çatmağı qarşısına məqsəd qoymuşdur.

Rauf İbadov hələ uşaqlıq illərindən rəsmə və incəsənətə olan marağını məktəb və universitet dövrlərində olduğu kimi, əsgərlik dövründən sonrada davam etdirmişdir. Universitetdə ilk sərgi Raufun rəsm əsərləri ilə təşkil olunmuşdur və digər müsabiqələrdə iştirak edərək 15-ə yaxın fəxri fərmanlarla təltif olunmuşdur.

2015-ci il Birinci Avropa Oyunlarında Prezidentimizin çağırışına dəstək olaraq, yarışın açılış və bağlanış mərasimlərində könüllü olaraq iştirak etmiş və Prezidentimiz cənab İlham Əliyevin və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın imzaları ilə "Təşəkkürnamə-"almışdır.



2020- ci il iyul ayında Tovuz döyüşləri zamanı Hərbi Komissarlıqda könüllü olaraq qeydiyyata düşmüşdür. 2020 ci il sentyabr ayının 21-də cəbhəyə yola salınmışdır. Sentyabr ayının 27-dən müharibə başladığı ilk gündən Fizuli, Cəbrayıl, Hadrut və Qubadlı istiqamətlərində gedən döyüşlərdə göstərdiyi şücayətinə görə komandanlıq tərəfindən onu manqa komandiri təyin etmişlər.

Hadrut meşəliyində gecə saatlarında gedən döyüşlərin birində Rauf İbadov şəhid olmuş bir əsgərimizin cəsədini çiyninə alaraq 20 km-lik məsafədə yerləşən arxa posta çatdırıb və səhərə yaxın gəlib öz döyüş mövqeyinə çatmışdır. Buna baxmayaraq o komandirlərinə ön cəbhədə vuruşacağını və yeni postlar alacağını dəfələrlə söyləmişdir.

Bu müddət ərzində o gizir vəzifəsinə və 052 saylı birqadaya rabitəçi təyin olunmuşdur. Son məlumata görə, Hadrut-Laçın meşəlik ərazisində düşmənlə üzbəüz atışma zamanı əlbəyaxa döyüşlə bir neçə düşməni məhv etmiş və qəhrəmancasına şəhid olmuşdur.

Müqəddəs savaşımızda şərəfli döyüş yolu keçən, Hadrut-Laçın meşəlik ərazisində üzbəüz atışma zamanı əlbəyaxa döyüş nəticəsində Şəhid olan iğidimiz Rauf İbadov təəssüb ki, torpaqlarımızın azad olunduğunu görə bilmədi. Rauf İbadov döyüş meydanında göstərdiyi sücaəti ilə on milyonların ürəyində taxt qurdu. Qismətinə Vətən yolunda Şəhid olmaq yazıldı. Amma bu gün onun ruhu şaddır, çünki bu gün bayrağımız işğal olunmuş rayonlarımızda dalğalanır. Şəhid Rauf İbadov göstərdiyi sücaətlə bütün Azərbaycanın qəlbini fəth edən, ölümüylə hər kəsin ürəyində özündən sonra bir iz qoyan igidlərimizdəndir. qoydu. 24-cü ömür yolunda şərəfli şəhid adıyla, ucaldığı zirvə ilə bütün Azərbaycana müharibəsiz bir gələcək bəxş etdi.

Deyirlər ki, torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda vətən olur. Ürəyi vətən sevgisi ilə döyünən Rauf İbadov yollandığı döyüş meydanında qanı ilə tarix yazanlardan oldu.

Yaxınlarının gülərüz, şirin zarafatları ilə xatırladığı Rauf ucaldığı Şəhidlik zirvəsi ilə tək ailəsinin yox, bütün xalqın yaddaşında özünə əbədi yer elədi. Qismətinə yazılan Şəhid adın mübarək.

Şəhidlər ölmür, əksinə ucaldıqları zirvə ilə dirilik qazanırlar.

Ölümləri ilə Vətənimizi bütövləşdirənlər Siz Azərbaycanın Qarabağ əsərinə imza atdınız. Siz 10 milyon insanların dərdinə dərman, yaralarına məlhəm oldunuz. Biz tarix yazan Şəhidlərimizlə qürur duyuruq.

Allah bütün Şəhidlərimizə rəhmət eləsin. Ömrümüzün sonuna kimi onlara borcluyuq. Şəhidlərimizi tanıtmaq bizim borcumuzdur.

Şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik.

*Şikar* Əhmədov
***Əkinçilik ET-institutunun direktor müavini,***
***Aqrar Elmlər üzrə fəlsəfə doktoru***

***Qənifə QARABAĞLI,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü.***